**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Summer 2022/9-2**

https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.242

# 44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan-Avropa İttifaqı Münasibətləri[*]

**Aygün Əliyeva[***]**

**ORCID: 0000-0002-3351-4425**

**Xülasə**

Məqalədə 44 günlük Vətən müharibəsi ərzində və sonrasında Azərbaycan-Avropa İttifaqı münasibətləri geniş şəkildə araşdırılmışdır. Qeyd edək ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə Cənubi Qafqaz regionunda tamamilə yeni reallıqlar yaratdı. Bu reallıqlara dayanaraq aparılan tədqiqatın nəticəsində məlum olur ki, Avropa İttifaqı üçün Azərbaycan bu gün regional əməkdaşlıq, enerji və nəqliyyat təhlükəsizliyi və strateji kommunikasiya sahələrində ən etibarlı tərəfdaşdır. Avropa İttifaqı xüsusilə Azərbaycan-Ermənistan münasibətləri fonunda ikili standartlar nümayiş etdirir. Tədqiqatın gedişində bu məqam faktlarla bir daha sübut edilir. Bununla belə məqalədə Aİ – Azərbaycan münasibətləri yalnız ziddiyyətlərlə deyil, həm də perspektivlə xarakterizə olunur. Bu baxımdan Aİ-nin Cənubi Qafqaz regionunda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına, o cümlədən də Zəngəzur dəhlizi boyunca dəmir yolunun çəkilişinə və inkişaf etdirilməsinə dəstəyini nümayiş etdirməsi bu perspektivlərin müsbət təzahürüdür.

**Açar sözlər:** Azərbaycan, Avropa İttifaqı, Şərq Tərəfdaşlığı, Ermənistan, Qarabağ, Vətən müharibəsi, Cənub Qaz dəhlizi

**Gönderme Tarihi: 20/03/2022** **Kabul Tarihi:01/06/2022**

---

[*] *Bu məqalə müəllifin "Azərbaycanın xarici siyasətində Avropa İttifaqı: əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri" adlı dissertasiyası əsasında yazılmışdır.*

[**] *Baş müəllim və doktorant, Bakı Slavyan Universiteti, Diplomatiya ve xarici siyasət kafedrası , Bakı-Azerbaycan, aygun.ibrahimova@yahoo.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***

ƏLIYEVA, A.,''44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan-Avropa İttifaqı Münasibətləri'', *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 2, 2022, s.536-560.

# Azerbaijan-EU relations during and after the 44-day Patriotic War

**Aygun Əliyeva***
**ORCID: 0000-0002-3351-4425**

**Abstract**

The article examines in detail the relations between Azerbaijan and the EU during and after the 44-day Patriotic War. It should be noted that the historic Victory of Azerbaijan in the 44-day Patriotic War created completely new realities in the South Caucasus region. Based on these realities, the study shows that today Azerbaijan is the most reliable partner of the European Union in the areas of regional cooperation, energy and transport security and strategic communications.The European Union resorts to double standards, especially in the context of Azerbaijani-Armenian relations. In the course of the study, this point is once again confirmed by the facts. However, the article characterizes the relations between the EU and Azerbaijan not only with contradictions but also with perspective. In this regard, EU support for the creation and development of communication infrastructure in the South Caucasus, the opening of lines connecting the countries, including the construction of a railway along the Zangezur corridor is a positive manifestation of these perspectives.

**Keywords**: Azerbaijan, European Union, Eastern Partnership, Armenia, Karabakh, Patriotic War, Southern Gas Corridor

**Received Date: 20/03/2022** **Accepted Date: 01/06/2022**

---

**Senior Lecturer and Doctorant, Baku Slavic University, Aygun Aliyeva, Department of Diplomacy and Foreign Policy, Baku-Azerbaijan, aygun.ibrahimova@yahoo.com*

***You can refer to this article as follows:***
ƏLIYEVA, A.,‘’44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan-Avropa İttifaqı Münasibətləri’’, *Academic Journal of History and Idea,* Vol. 9, Issue 2, 2022, p.536-560.

# Отношения Азербайджана и ЕС во время и после 44-дневной Отечественной войны

**Айгюн Алиева***
**ORCID: 0000-0002-3351-4425**

**Резюме**

В статье подробно рассматриваются отношения Азербайджана и ЕС во время и после 44-дневной Отечественной войны. Следует отметить, что историческая победа Азербайджана в 44-дневной Отечественной войне создала совершенно новые реалии в регионе Южного Кавказа. Исходя из этих реалий, исследование показывает, что сегодня Азербайджан является самым надёжным партнером Европейского Союза в сферах регионального сотрудничества, энергетической и транспортной безопасности и стратегических коммуникаций. Евросоюз прибегает к двойным стандартам, особенно в контексте азербайджано-армянских отношений. В ходе исследования этот момент еще раз подтверждается фактами. Однако в статье характеризуется отношения ЕС и Азербайджана не только противоречиями, но и перспективой. В этой связи поддержка ЕС создания и развития коммуникационной инфраструктуры на Южном Кавказе, открытие линий, соединяющих страны, включая строительство железной дороги по Зангезурскому коридору, является положительным проявлением этих перспектив.

**Ключевые слова:** Азербайджан, Европейский союз, Восточное партнерство, Армения, Карабах, Отечественная война, Южный газовый коридор

**Получено: 20/03/2022** **Принято: 01/06/2022**

---

*Старший преподаватель и докторант, Бакинский Славянский Университет, Айгюн Алиева, кафедра дипломатии и внешней политики, Баку-Азербайджан, aygun.ibrahimova@yahoo.com*

***Ссылка на статью:***
ƏLIYEVA, A.,‘’44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan-Avropa İttifaqı Münasibətləri’’, *академическая история и мысль*, T.9, NO.2, 2022, C.536-560.

## Giriş

Avropa İttifaqı – Azərbaycan münasibətlərinin inkişaf dinamikasına iki cəhətdən nəzər salmaq mümkündür. Birincisi, tərəflər arasında "Şərq Tərəfdaşlığı" proqramına müvafiq olaraq münasibətlər qurulması, ikincisi isə Brüsselin Cənubi Qafqazın lider dövləti kimi Azərbaycanla ikitərəfli əlaqələr yaradılmasını qeyd edə bilərik. Hər iki cəhət bir-biri ilə əlaqəlidir. Şərq Tərəfdaşlığı (ŞT) Avropa İttifaqı (Aİ), ona üzv ölkələr və altı şərq qonşusu – Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Moldova və Ukrayna arasında əlaqələri dərinləşdirmək və gücləndirməyə yönəlmiş birgə siyasi təşəbbüsdür. Aİ-nin şərq qonşularında sabitlik və dayanıqlığın gücləndirilməsinə diqqətin artırılmasına dair çağırış edən Aİ-nin Qlobal Strategiyası və yenilənmiş Avropa Qonşuluq Siyasəti Aİ-nin qonşuları ilə əlaqələrinə bələdçilik edir.[1] Qonşuluq siyasəti Aİ-nin Şərqə doğru genişlənməsinin nəticəsi kimi ortaya çıxmışdır. Bu nüans Azərbaycan da daxil olmaqla təşkilatın qonşu olduğu dövlətlərlə bağlı həyata keçirdiyi siyasi kursunda mövcud prinsipial dəyişikliklə sıx bağlıdır. Genişlənmənin nəticəsi olaraq Aİ-nin şərq və cənub istiqamətlərində sərhədləri yeniləndi. "Qonşu ölkələr" və "Aİ-nin xarici sərhədləri" anlayışları geosiyasi kontekstdə yeni məzmun çalarları qazanmış oldu. “Köhnə qonşular”dan fərqli olaraq Aİ-nin "yeni qonşular"ının ittifaq ölkələri ilə bilavasitə sərhədləri yoxdur və ona üzv olmaq imkanından məhrum idilər. Bundan başqa, "yeni qonşular" dövlət olaraq çox fərqlidirlər və müxtəlif maraqlar güdürlər. Nədənsə, Aİ-nin qonşuluq siyasətində məhz bu məqam ekspertlər tərəfindən yaddan çıxarılır. Bu o deməkdir ki, Aİ birbaşa sərhəddi yaxınlığında olan ölkələrə (məsələn, Polşa və ya Rumıniyaya) münasibətdə siyasətini ondan coğrafi olaraq uzaq olan Gürcüstan və ya Azərbaycanla eyni məzmunda qura bilməzdi. Bu qarşılıqlı münasibətlər siyasətinə konkret məzmun verilməli idi. 2015-ci il noyabr ayının 18-də Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Moqerini təşkilatın yeni qonşuluq siyasətinin beş təməl prioritetini bu cür ifadə etmişdi: birincisi – iqtisadi əməkdaşlıq, ikincisi – enerji əməkdaşlığı, üçüncüsü – təhlükəsizlik, dördüncüsü – miqrasiya, beşincisi – qonşularla əlaqələr. Bu prioritetlər əsasında Aİ-nin qonşu ölkələrlə, o cümlədən Azərbaycanla əlaqələrində dörd əsas istiqamət üzrə 2020-ci ilə qədər fəaliyyət üstünlük təşkil etməli idi. Həmin istiqamətlər aşağıdakılardır: daha güclü

[1] “Şərq Tərəfdaşlığı”, https://eufordigital.eu/az/discover-eu/eastern-partnership,(31.01.2022).

iqtisadiyyat, daha möhkəm idarəetmə, daha güclü rabitə və daha güclü cəmiyyət. Xatırladaq ki, sonuncu istiqamət insanlar arasında əlaqələri və münasibətlərdə çevikliyi ifadə edir. Bütövlükdə sadalanan istiqamətlər üzrə 2020-ci ilə qədər Cənubi Qafqaz ölkələri də daxil olmaqla "iyirmi açar vəzifə" yerinə yetirilməli idi. “Bəs bütün bunların nəticəsi necə oldu?” sualına cavab axtaranda aydın olur ki, Aİ-Azərbaycan münasibətlərinin 2020-ci ildə əldə edilməsi nəzərdə tutulan nəticələrinin reallaşması üçün mühüm şərt "Aİ tələb etdi, Azərbaycan yerinə yetirməlidir" təfəkkürü ilə deyil, bir-birinə qarşılıqlı hörmət, aktivlik göstərmək şüuru ilə davranmaq lazım gəldiyini Brüsselin anlaması oldu. [2] 2020-ci ilin sentyabr-noyabr aylarında (qırx dörd gün) baş verən ciddi geosiyasi-hərbi proseslər isə bu münasibətlərdə tam bir dönüş nöqtəsi oldu.

## 1-44 günlük Vətən müharibəsi öncəsi Azərbaycan Respublikasının Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələri

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və çevik ittifaqlar strategiyasının həyata keçirilməsini təmin edən Azərbaycan Respublikasının çoxvektorlu xarici siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirməsinə, Cənubi Qafqazın aparıcı ölkəsinə çevrilməsinə, həmçinin dövlət müstəqilliyini təmin etmək və gücləndirmək üçün mövcud resursların düzgün şəkildə istiqamətləndirilməsinə və yeni potensialın artırılmasına imkan verdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir şəraitdə milli maraqlar nəzərə alınmaqla, yeni məzmunla tamamlanan Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsi kursunu uğurla və ardıcıl şəkildə davam etdirir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, *“İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb”*.[3] Ümumiyyətlə, Azərbaycan Respublikası ilə Avropa İttifaqı (Aİ) arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətində üstünlük təşkil edən əsas istiqamətlərdən biridir. Bu gün respublikamızla Aİ arasında enerji, investisiya, ticarət və başqa sahələrdə yüksək səviyyədə inkişaf edən əlaqələr qurulub. Bu beynəlxalq təşkilat Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Azərbaycan Respublikası Avropa bazarlarına xam neft nəqlini

[2] Kamal Adıgözəlov, “Avropa İttifaqı – Azərbaycan münasibətləri: Prezident İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır”, Xalq qəzeti, Bakı 2021, 9 iyun, s. 3-4.
[3] “Yeni Azərbaycan Partiyasının VII qurultayında İlham Əliyevin giriş nitqi”, Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı – 05.03.2021. https://president.az/articles/50805, (31.01.2022).

həyata keçirən etibarlı təchizatçı kimi tanınır və yaxın zamanda ölkəmizin Aİ-yə üzv dövlətləri təbii qazla təchiz etməsi də planlaşdırılır. Respublikamızda Aİ ilə birgə müxtəlif proqram və layihələr də uğurla reallaşdırılır.

Aİ-nin Şərq Tərəfdaşlığı ölkələri ilə münasibətlərində suverenlik və ərazi bütövlüyü əsas element olaraq mühüm yer tutur. Hələ 2018-ci ildə Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədində hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanırdı. Məhz bu məqama diqqəti çəkən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Vətən müharibəsindən əvvəl 2020-ci il yanvar ayının 18-də etdiyi çıxışında da qeyd edirdi ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib. *"Biz bundan əvvəl Şərq Tərəfdaşlığı ilə əlaqədar Brüssel Sammitinin yekun sənədlərinə, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında hazırlanmış "Tərəfdaşlıq prioritetləri" sənədinə baxsaq görərik ki, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə qətiyyətli və birmənalı dəstək var. Ona görə də bunun davamı olaraq Avropa İttifaqının xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsinə dair sənəddə Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyünə münasibətdə ifadə olunan bu mövqeni yüksək qiymətləndiririk",* - deyə Prezidentin köməkçisi çışıxında qeyd etmişdir.[4] Elə bu səbəbdəndir ki, Şərq Tərəfdaşlığı sammitlərində Azərbaycanın mövqeyi hər zaman qəti olur və müdafiə edilir. Bu mənada da 44 günlük Vətən müharibəsi ərəfəsində Şərq Tərəfdaşlığının 2020-ci il iyunun 18-də keçirilən sammiti də istisna olmadı və Azərbaycanın Ermənistan üzərində növbəti siyasi qələbəsi kimi tarixə düşdü.[5] Həmin sammitdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də çıxışında Azərbaycanın Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsi olmasını, Azərbaycanın Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığının mövcudluğunu diqqətə çatdırmışdır. Ölkə başçısı Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələdə olduğunu, mətnin 90 faizinin artıq razılaşdırıldığını vurğulamışdı. Azərbaycan Respublikasının Prezidenti Sammitdəki çıxışında hələ də icra olunmayan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, bu qətnamələrə və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl

---

[4]"Hikmət Hacıyev: Aİ-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ardıcıl mövqeyini yüksək qiymətləndiririk", Azərbaycan qəzeti, Bakı 2020, 18 yanvar, s. 2.

[5]Vaqif Bayramov, "Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir" Xalq qəzeti, Bakı 2020, 27 sentyabr, s. 1; "Şərq Tərəfdaşlığı ölkələrinin sammitində İlham Əliyevin nitqi", 18 iyun, 2020. https://president.az/az/articles/view/39850 (31.01.2022).

edilməsinin vacibliyini qeyd etməklə əslində problemin dinc yolla həlli yolunda son xəbərdarlıqları edirdi. Nəzərə alsaq ki, "Şərq tərəfdaşlığı"nda Avropa İttifaqının altı qonşu ölkəsindən biri məhz Ermənistan idi, bu çıxış eyni zamanda Avropa tribunasından qonşu ölkəyə sonuncu xatırlatma da hesab edilə bilər. Həmin çıxışda ölkə başçısının dediyi bu fikirlərə diqqət etmək lazımdır: *"Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.*"[6] Bu fikirlər Ermənistanın Dağlıq Qarabağdakı problemi dinc yolla həll etməyə nəinki yanaşmadığını, ümumiyyətlə *"ortada hansısa bir problemin olmaması"* düşüncəsində olduğunu təsdiq edir. Bu düşüncədə olan bir dövlətə də verilən ən yaxşı cavab sözsüz ki, 44 günlük Vətən müharibəsi oldu.

44 günlük Vətən müharibəsi öncəsi Avropa cəbhəsində də vəziyyəti öz xeyrinə həll edə bilən Azərbaycan Respublikası Vətən müharibəsinin gedişində və müharibədən sonra da Avropa İttifaqı ilə münasibətlərini yüksələn xətt üzrə inkişaf etdirməyə nail oldu. Sentyabrın 26-da Xarici İşlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşü baş tutdu. Görüş zamanı tərəflər Azərbaycan və Avropa İttifaqı arasında mövcud olan faydalı əməkdaşlıq münasibətlərinə dair fikir mübadiləsi apardılar. Diqqəti çəkən ən mühüm məqam nazir Ceyhun Bayramovun yalnız Azərbaycan deyil, eləcə də bölgənin təhlükəsizliyi üçün ciddi təhdid olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri barədə qarşı tərəfə məlumat verməsi oldu. Bu məlumatlar Ermənistan tərəfinin son zamanlar həyata keçirdiyi silsilə təxribat xarakterli əməlləri, o cümlədən iyulun 12-16-da Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin əvvəlcədən planlaşdırılan hücum cəhdi, avqustun 23-də Goranboy rayonu istiqamətində Ermənistanın diversiya-kəşfiyyat qrupunun təxribatı, Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilməsi və digər təhrikçi fəaliyyəti haqqında idi. Azərbaycan tərəfi Avropa İttifaqının səlahiyyətli nümayəndəsinə sadəcə bu məlumatları verməklə yetinmədi. Xarici İşlər naziri

[6]"Şərq Tərəfdaşlığı ölkələrinin sammitində İlham Əliyevin nitqi", 18 iyun, 2020. URL: https://president.az/az/articles/view/39850 (31.01.2022).

Ceyhun Bayramov Ermənistan rəhbərliyinin bu addımlarının münaqişənin danışıqlar yolu ilə həlli prosesinə zərbə vurduğunu, problemin həlli üçün müvafiq məqamın yetişməsinin önəmli olduğunu da qeyd etdi. Nəticə etibarilə Azərbaycan ərazilərinin işğalının nəticələrinin aradan qaldırılmasının dinc yolla mümkün olmadığını, hərbi yolla həllinin vaxtının çatdığının xəbərini də Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaara çatdırmış oldu.[7] Belə də oldu. Düşmənin 2020-ci il sentyabrın 27-də baş verən növbəti təxribatına cavab olaraq 44 günlük Vətən müharibəsi başladı.

**2-44 günlük Vətən müharibəsi ərzində Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri**

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Məhz bu iclasda Ermənistan tərəfinin təxribatına cavab olaraq Azərbaycan ordusunun əks-hücum əməliyyatına başlaması barədə qərar qəbul edildi.[8] “Dəmir yumruq” əməliyyatı adı ilə tanınan bu əks-hücum əməliyyatı tariximizin qızıl hərflərlə yazılmış parlaq səhifəsidir. Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Vətən müharibəsinin gedişində dinc insanları hədəf alan Ermənistanın Gəncə şəhərinə hücumu Avropa İttifaqı tərəfindən pisləndi. Avropa İttifaqının bununla bağlı açıqlamasında hər hansı tərəfin mülki şəxsləri və obyektləri hədəfə almasına son qoymalı olduğu bildirilir və qeyd olunurdu ki, oktyabrın 10-da əldə edilmiş atəşkəs razılaşmasına hörmət edilməlidir. [9] Lakin Ermənistan tərəfi hər hansı bir atəşkəs razılığına əməl etməyəcəyini Gəncə, Tərtər və Bərdə terroru[10] ilə bir daha nümayiş etdirdi. Oktyabrın 19-da isə Azərbaycanın baş prokuroru Kamran Əliyev Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas ilə görüşdü. Həmin görüşdə Baş Prokuror Ermənistan tərəfindən Dağlıq Qarabağ münaqişəsinin törədilməsini, o cümlədən mülki əhalinin sıx yaşadığı Gəncənin raket atəşinə tutulmasını pisləyən Avropa İttifaqının bəyanatlarını yüksək qiymətləndirdiyini bir daha bəyan etdi. Münaqişənin mahiyyəti barədə Avropa İttifaqının səlahiyyətli nümayəndəsinə məlumat verən Baş prokuror sentyabrın 27-dən

[7] "Azərbaycan və Avropa İttifaqı qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlıdır”, Azərbaycan qəzeti, Bakı 2020, 27 sentyabr, s. 2.

[8]“İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib”, 27 sentyabr, 2020.president.az/articles/40969 (31.01.2022).

[9] “Avropa İttifaqı Gəncə şəhərinə mülki insanların həlak olması və yaralanması ilə nəticələnmiş hücumu pisləyib”, Azərbaycan qəzeti, Bakı 2020, 18 oktyabr, s.8.

[10] “Ermənistan Gəncə, Tərtər və Bərdənin mülki əhalisinə qarşı törətdiyi terrora görə ağır cavab verəcəkdir!”, İki sahil. onlayn ictimai-siyasi qəzet, Bakı, 30 oktyabr, 2020.https://ikisahil.az/post/174882-ermenistan-gence-terter-ve-berdenin-mulki-ehalisine-qarshi-toretdiyi-terrora-gore-agir-cavab-verecekdir (31.01.2022).

başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini, o cümlədən 4, 11 və 17 oktyabr tarixlərində Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalması nəticəsində xeyli sayda mülki insanın həlak olması və yaralanmasını xüsusilə vurğuladı. Həmçinin Avropa İttifaqının nümayəndəsi, Azərbaycan Respublikası ilə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Aİ-nin Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyaraq Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını, münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini bir daha qeyd etmişdir.[11] Buna baxmayaraq, Aİ daxilində dövlətlər arasında müharibə zamanı münaqişəyə dair həmrəylik deyil, fikir ayrılığı və ziddiyyət olduğunun şahidi olduq. Belə ki, ermənipərəst Fransanın Ermənistana heç bir fayda kəsb etməyən dəstəyi fonunda Almaniyanın neytral və çox da müdaxiləçi mövqe nümayiş etdirməməsi maraq doğururdu. Bundan əlavə, Böyük Britaniyanın Britiş Petrolium şirkətinin regional prezidenti Qeri Counzun Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova ünvanladığı məktubda[12] Azərbaycanın apardığı mübarizəyə dəstək nümayiş etdirməsi dolayı da olsa keçmiş Aİ ölkəsinin mövqeyini bizə təqdim edir.

Bununla belə 44 günlük Vətən müharibəsi gedişində proseslərin geosiyasi və informasiya tərəfləri Aİ – Azərbaycan münasibətlərinin yeni səviyyəyə keçməsində daha böyük rol oynadı. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev siyasət, diplomatiya, hərb meydanı və informasiya istiqamətlərinin hər biri üzrə dünya səviyyəsində yetkinlik, ədalətlilik, çeviklik, strateji düşüncə, qətiyyət və praqmatik addımlar nümayiş etdirdi. Bu, Brüsselə iki aspektdə ciddi təsir göstərdi. Birincisi, hazırda Avropa İttifaqının özündə lider çatışmazlığı ("qıtlığı") vardır. Angela Merkel siyasətdən gedir, Böyük Britaniya təşkilatı tərk edib, Emmanuel Makron ziddiyyətli addımlar atır. İlham Əliyev qırx dörd gün ərzində Avropa miqyasında belə fəal, çevik, müasir düşüncəli, qətiyyətli və sülhpərvər lider olduğunu sübut etdi. İkincisi, ərazi bütövlüyünün təmininə xidmət edən aktiv hərbi əməliyyatlar

[11] "Azərbaycanın Baş prokuroru Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri ilə görüşüb", Azərbaycan qəzeti, Bakı 2020, 20 oktyabr, s. 5.
[12] Nigar Əsgərova, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Avropa İttifaqının Azərbaycanda enerji təhlükəsizliyi məsələsi", Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnalı, №1, Bakı 2021, s. 108-115; "BP-nin regional prezidenti Baş Nazir Əli Əsədova məktub ünvanlayıb". 19 oktyabr, 2020.http://nk.gov.az/az/document/4858/print/ (31.01.2022).

dövründə İlham Əliyev təkbaşına bütün informasiya sahəsinə yeni məzmun verdi. Xaricdən gəlmiş qərəzli jurnalistlərə belə sübut etdi ki, Azərbaycan müharibə istəmir, Bakı ədalətlə və beynəlxalq hüququ gözləməklə ərazi bütövlüyünü təmin edir və bu anlamda, faktiki olaraq, BMT və Aİ-yə yardım göstərir. Əgər Ermənistan işğal etdiyi torpaqları tərk edərsə, Azərbaycan dərhal əməliyyatları dayandıracaq və İrəvanla əməkdaşlıq perspektivlərini müzakirə edə bilər. Bir şərtlə ki, Ermənistan kapitulyasiyanı qəbul etsin və uyğun sənədi imzalasın. Bu iki məqam Aİ-nin Cənubi Qafqaz, o cümlədən Azərbaycan siyasətinə nəinki mane olurdu, hətta ona yeni sivil məzmun vermək imkanı yaratmışdı. Avropa İttifaqı Azərbaycanın timsalında postsovet məkanında real demokratik düşüncəyə və davranışa malik müstəqil dövlətlə rastlaşırdı. Bu, şübhə yoxdur ki, Brüsselin ikili standart və islamofobiya kimi hallara reverans etməsi şansını heçə endirir. Çünki artıq mənzərəni Bakı yaradır və onun kimin hansı rolu oynadığı haqqında dəqiq təsəvvürü mövcuddur. [13]

Aİ-ni öz mövqeyinə yenidən nəzər salmağa məcbur edən iki mühüm amili mütləq qeyd etmək lazımdır. Birinci amil ondan ibarətdir ki, Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanan 2020-ci il 10 noyabr sənədi və 2021-ci il yanvarın 11-də Moskvada imzalanan sənəd sübut etdi ki, Rusiya və Türkiyə Qərbin iştirakı olmadan Cənubi Qafqazda istənilən problemi təminatla həll etmək iqtidarındadır. Problemin həllində də aydın görünürdü ki, beynəlxalq təşkilatlar, o cümlədən Aİ proseslərdən kənarda qalırdı. Bu da ittifaqın nüfuzuna ciddi zərbə oldu. İkinci amil odur ki, əldə edilən razılıqların şərtləri nümayiş etdirdi ki, Azərbaycan Cənubi Qafqazla yanaşı, daha geniş miqyasda regional əməkdaşlıq, enerji və nəqliyyat təhlükəsizliyi və strateji kommunikasiya sahələrində aparıcı rol oynamaq statusuna yüksəlib. Aİ-nin yuxarıda vurğulanan proqramları aspektində bu, faktiki olaraq, Azərbaycanın təşkilat üçün yeni perspektivlər açması anlamına gəlir. Belə ki, əldə edilən razılaşmalara görə, regionda kommunikasiya xətlərinin açılması və müxtəlif beynəlxalq layihələr çərçivəsində region dövlətlərinin (Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, İran və Türkiyə) iştirakına ciddi əhəmiyyət verilirdi. Bu baxımdan da Zəngəzur dəhlizinin yaradılması mühüm strateji əhəmiyyət kəsb edirdi. Bununla aydın oldu ki, Azərbaycan qırx dörd gün ərzində Cənubi Qafqazda geosiyasi dinamikanı, qüvvələr nisbətini və ümumi mənzərəni elə dəyişdi ki, artıq qlobal güclərin heç biri əvvəlki məntiqlə regionda fəaliyyət göstərə bilməzdi. Brüsselin bunu dərk etməsi onun mövqeyinə yenidən baxmasını şərtləndirdi.

---

[13] K. Adıgözəlov, a.g.m.,s. 3-4.

## 3-44 günlük Vətən müharibəsindən sonra Aİ ilə Azərbaycan arasında münasibətlər

İkinci Qarabağ müharibəsindən sonra Aİ ilə Azərbaycan arasında münasibətlərin hansı məcrada inkişaf edəcəyi ciddi maraq kəsb edirdi. Bu barədə müxtəlif təhlillər aparılır, proqnozlar verilirdi. Bütün bunların fonunda Aİ – Azərbaycan münasibətlərinin hazırkı mərhələdə ziddiyyətləri və perspektivləri üzərində geniş dayanmağa ciddi ehtiyac duyulur. Bu məsələ ilə bağlı iki aspekti mütləq nəzərə almaq lazımdır. Birinci aspekt Avropa İttifaqının hələ də dünyanın böyük geosiyasi güclərindən biri olması ilə bağlıdır. Faktiki olaraq, hal-hazırda böyük bir məkanda geosiyasi balans yaratmaq funksiyasını icra edir. Eyni zamanda, Avropa İttifaqı Cənubi Qafqaz dövlətləri ilə (həm "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində, həm də ikitərəfli əlaqələr müstəvisində) münasibətlərin qurulmasında müəyyən təcrübəyə malikdir. Belə ki, 1992-ci ildən başlayaraq Aİ müxtəlif proqramlar vasitəsilə region ölkələri ilə əlaqələrini inkişaf etdirməyə çalışır. İkinci aspekt Azərbaycanın son illərdə sürətli iqtisadi inkişaf yoluna qədəm qoyması, müstəqil siyasətini daha da təkmilləşdirməsi ilə İkinci Qarabağ müharibəsində əldə etdiyi parlaq qələbə sayəsində regionda geosiyasi balansı yeniləməsilə bağlıdır. Nəticədə, bir tərəfdən, dünyanın böyük geosiyasi gücləri regiondakı siyasətlərinə yenidən baxmalı oldular, digər tərəfdən, Azərbaycanı bu regionun əsas geosiyasi faktoru kimi nəzərə almağa başladılar. Bu iki məqam Aİ–Azərbaycan münasibətlərinin məzmununa ciddi təsir etməkdədir.[14]

Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında 2021-ci il iyunun 2-də olan telefon söhbətində Aİ təşkilatının Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu bildirməsi mühüm önəm daşıyır. Yeri gəlmişkən, bu kontekstdə Aİ münaqişələrin tənzimlənməsi və sülh yaradılmasında (Balkanlar), xüsusilə minadan təmizləmə sahəsində böyük təcrübəyə malikdir.[15] Bu təcrübə bu gün başdan başa minalanmış və yaxın keçmişə qədər işğal altında olan Azərbaycanın Qarabağdakı torpaqlarının təmizlənməsi prosesində mühüm əhəmiyyətə malikdir.

44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra da Azərbaycan-Avropa İttifaqı münasibətləri yüksələn xətt üzrə inkişaf etdi. Dekabrın 18-də Brüsseldə Azərbaycan-Avropa

[14] K. Adıgözəlov, a.g.m., s. 3-4.
[15] Vaqif Bayramov, "Azərbaycanın təşəbbüsləri beynəlxalq aləmdə dəstəklənir", Xalq qəzeti, Bakı 2021, 4 iyun, s. 3.

İttifaqı Əməkdaşlıq Şurasının 17-ci iclası keçirildi. İclasda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti, Aİ isə xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunurdu. Aİ nümayəndə heyətinin tərkibində, həmçinin Qonşuluq Siyasəti və Genişlənmə danışıqları üzrə komissar Oliver Varhelyi də iştirak edirdi. İclasda tərəflər Əməkdaşlıq Şurasının son iclasından etibarən Aİ və Azərbaycan arasındakı əməkdaşlıq münasibətləri və bu xüsusda əldə olunmuş nailiyyətlər ətrafında fikir mübadiləsi apardılar. Tərəflər arasında enerji sahəsində strateji tərəfdaşlıq, Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması, eləcə də nəqliyyat və bağlılıq layihələri, Azərbaycanın bu xüsusda böyük potensialı, sərmayə yatırımı və digər mövzular üzrə müzakirələr aparıldı. Nazir Ceyhun Bayramov tərəfindən Ermənistan tərəfindən cari ilin 27 sentyabr tarixində başladılan növbəti təxribat və ona cavab olaraq Azərbaycanın əks-hücum əməliyyatları, 44 gün davam edən Vətən müharibəsi, eləcə də bu müddət ərzində Ermənistan tərəfindən törədilən hərbi cinayətlər, dinc azərbaycanlı əhalinin məqsədli hədəfə alınması, Ermənistan tərəfindən xarici ölkələrdən muzdluların bölgəyə gətirilməsi ilə əlaqədar çoxsaylı faktların Azərbaycan tərəfində olması ilə bağlı məsələlər qarşı tərəfin diqqətinə çatdırıldı. 10 noyabr tarixində Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanat, bu razılaşmadan irəli gələn məsələlərin icrası, razılaşmanın bölgədə yaratdığı yeni təhlükəsizlik formatı və əməkdaşlıq çərçivəsi ilə bağlı məsələlər barədə Aİ nümayəndə heyətinə məlumat verildi. Münaqişə sonrası bərpa və yenidənqurma mərhələsində aidiyyəti üzrə Aİ-nin də iştirak etmək istəyi Azərbaycan nümayəndə heyətinə bildirildi. Gedişat, aparılan fikir mübadilələri[16] bütövlükdə Avropa İttifaqının Qarabağda münaqişənin həllinə dair 10 noyabr Bəyanatının imzalanmasından məmnunluğunu ifadə etsə də, əslində Azərbaycanın Qarabağdakı haqq davasına münasibəti bir o qədər də obyektiv hesab edilə bilməz. Çünki əksər hallarda xristian təəssübkeşliyi Avropa İttifaqı nümayəndələrinə güc gəlmişdir. Belə ki, 7 ilə yaxın müddətdə azərbaycanlı girovlar – Dilqəm Əsgərov və Şahbaz Quliyev əsarətdə saxlanılsalar da Aİ-nin bu vəziyyətə biganə münasibəti, əvəzində Avropa İttifaqı sözçüsü tərəfindən 5 erməni hərbçisinin azadlığa buraxılması ilə əlaqədar açıqlama verməsi[17] əslində təəssüf doğurmamalıdır. Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti idarəsinin verdiyi açıqlama da bu fikri bir daha təsdiq

[16] "Brüsseldə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 17-ci iclası keçirilib", Azərbaycan qəzeti, Bakı 2020, 20 dekabr, s. 2.
[17] "XİN: Aİ sözçüsünün erməni hərbçilərin azadlığa buraxılması ilə bağlı açıqlama verməsi təəccüb doğurur", Azərbaycan qəzeti, Bakı 2021, 31 yanvar, s. 5.

edir. Həmin açıqlamada qeyd edilir ki, son hərbi əməliyyatlar zamanı Ermənistan tərəfindən “Smerç” raketlərindən istifadə edilərək azərbaycanlı dinc insanların hədəfə alınması, 100-dən çox mülki şəxsin qətlə yetirilməsi, eləcə də ümumilikdə müharibə dövründə 4 mindən çox insanın itkin düşməsi ilə əlaqədar Aİ bu günədək hər hansı açıqlama verməyib, münasibət bildirməyib. Bu da azmış kimi Avropa İttifaqının Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə məqsədli şəkildə yeridilən 62 nəfəri hərbi əsir adlandırması da bir daha Avropa birliyinin əsl xislətini göstərir. Çünki bu əsirlər müharibədən az qala 20 gün keçdikdən, hərbi əməliyyatların dayandırılması ilə bağlı üçtərəfli bəyanat imzalandıqdan sonra Azərbaycan ərazilərinə göndərilən Ermənistan hərbi qulluqçuları idi. Onlar Azərbaycan ordusunun olduğu ərazilərə müdaxilə ediblər. Bu terrorçu-diversant qrupu tərəfindən törədilmiş terror aktları nəticəsində azərbaycanlı hərbçilər Turan Əliyev, Rahil Əkbərov, Hacırza Rzayev, Raqib Əzizov həlak olub, mülki şəxs Seymur Rzayev ağır yaralanıblar. Beynəlxalq humanitar hüquqa, nə də heç bir konvensiyaya əsasən, bu şəxslər hərbi əsir hesab edilə bilməzlər. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, terror aktları törədən bu insanlar cinayət məsuliyyətinə cəlb olunublar və onlar əsir deyil, terrorçudurlar. Aİ rəsmisinin Azərbaycanla bu tərzdə danışması qəbuledilməzdir. Azərbaycan tərəfi yalnız bərabərhüquqlu münasibətləri qəbul edə bilər. Qeyd edək ki, Aİ-nin birtərəfli və ikili standartlara əsaslanan bu yanaşması Azərbaycanla əlaqələrinə də xələl gətirə bilər.[18] Avropa İttifaqı tərəfindən Azərbaycana yalnız ticarət və enerji partnyoru kimi yanaşma, məsələ ermənilərə gəldikdə fərqli mövqe nümayiş etdirilməsi gözlənilən bir yanaşmadır. Bu Avropa İttifaqının xristian həmrəyliyi olmasından qaynaqlanır. Təsadüfi deyil ki, Azərbaycan rəsmiləri tərəfindən Avropa İttifaqının bizim əsas ticarət tərəfdaşımız olması hər zaman xatırlanır. Təsadüfi deyil ki, ticarətimizin təqribən 50 faizi Avropa İttifaqına üzv dövlətlərin payına düşür. Artıq xeyli müddətdir ki, Azərbaycan Avropa bazarlarına xam neft nəql edir və bu sahədə Aİ-nin ən etibarlı təchizatçısıdır. 2020-ci ilin son günlərində Azərbaycan Avropa İttifaqının üzv dövlətlərini təbii qazla təchiz etməyə başladı. Azərbaycan Respublikası ölkəmizi Avropa İttifaqı bazarlarına bağlayacaq 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi olan Cənub Qaz Dəhlizinin tikintisinin təşəbbüskarı olmuş və onu maliyyələşdirmişdir. Cənub Qaz Dəhlizi enerji əməkdaşlığı, enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Nəzərə alsaq ki, Rusiya Avropa İttifaqının təbii qaz ehtiyaclarının 34%-də pay sahibidir və

[18]“XİN: Aİ sözçüsünün erməni hərbçilərin azadlığa buraxılması ilə bağlı açıqlama verməsi təəccüb doğurur”, Azərbaycan qəzeti, Bakı 2021, 31 yanvar, s. 5.

Rusiya nəql etdiyi qazın həcmini artırıb azaltmaqla Avropada siyasi və iqtisadi maraqlarını təmin etməyə çalışır, belə olan halda Cənub Qaz Dəhlizinin əhəmiyyəti daha da aşkar olur.[19] Qeyd edək ki, "Şahdəniz Mərhələ-2" layihəsi çərçivəsində 3500 km məsafə qət edərək Xəzər dənizindən Avropaya qaz nəqlini nəzərdə tutan layihələr – mövcud Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG), Trans Anadolu Boru Kəməri (TANAP) və Trans Adriatik Boru Kəməri (TAP) – "Cənub Qaz Dəhlizi" (CQD) adı ilə tanınır.[20] Bu layihə ilə bağlı hələ 2011-ci il yanvar ayının 13-də Bakı şəhərində Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə birgə Bəyanat imzalanmış[21], 20 sentyabr 2014-cü ildə isə "21-ci əsrin müqaviləsi" kimi tarixə düşən CQD-nin təməli atılmışdır.[22] 29 may 2018-ci il tarixində Bakıda "Cənub Qaz Dəhlizi"nin, 12 iyun tarixində isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışı olub. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının Trans-Anadolu (TANAP) boru kəməri ilə Türkiyəyə göndərilməsinə başlanılıb. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Azərbaycan təbii qazının 31 dekabr 2020-ci ildə Avropa bazarına tədarükünə başlanılmışdır.[23] Azərbaycan Resublikasının Prezidenti cənab İlham Əliyevin bu çıxışı da Avropa İttifaqının Azərbaycanla bağlı enerji maraqlarını bir daha nümayiş etdirir. Ölkə başçısı 11 fevral 2021-ci ildə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasındakı çıxışında əbəs yerə "Babək" yatağında 400 milyard kubmetr, "Abşeron" qaz-kondensat yatağında 350 milyard kubmetr, "Ümid" yatağında ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatının mövcud olduğunu qeyd etmirdi.[24] Bu o deməkdir ki, Avropa hələ uzun illər Azərbaycanın təbii resurslarından bəhrələnə biləcəkdir. Ona görə də, dövlət başçımız məxsusi olaraq vurğulayır ki, əməkdaşlıq tərəflərin hər ikisinə sərf edən şərtlər çərçivəsində davam etdiriləcəkdir.[25]

Avropa İttifaqı Azərbaycan Respublikası ilə sadəcə enerji məsələsinə görə sıx əməkdaşlıq etmir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma

---

[19]Elnur Nəciyev, Rusiyanın Avropa ölkələri və Türkiyə ərazisində "Cənub Qaz Dəhlizi"nə qarşı fəaliyyəti, bu istiqamətdə təsir imkanları və istifadə etdiyi vasitələr`.https://www.unectf.org/2875/ (31.01.2022).
[20] E. Nəciyev, a.g.m.
[21]"Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu", Azərbaycan qəzeti, Bakı 2011, 24 aprel, s. 2.
[22] "Cənub Qaz Dəhlizi" layihəsinin icrası və layihənin regional qarşılıqlı təsirləri", http://minenergy.gov.az/upload/files/Energetika_bolmesi/qaz/CenubQaz Dehlizi.pdf (31.01.2022).
[23]"Cənub Qaz Dəhlizi", https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196 (31.01.2022).
[24]"İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında çıxış edib", 11 fevral, 2021. https://president.az/az/articles/view/50591 (31.01.2022).
[25]İttifaq Mirzəbəyli, "Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı Avropa İttifaqı tərəfindən həmişə dəstəklənib", Xalq qəzeti, Bakı 2021, 23 fevral, s. 3.

işlərinin aparılması, regional nəqliyyat layihələrinin həyata keçirilməsi məsələsində də maraqları olduğunu açıq şəkildə bəyan edirdi. Bunu 44 günlük Vətən müharibəsindən sonra tərəflər arasında aparılan fikir mübadilələrində hər daim müşahidə edirik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il mart ayının 10-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı[26], oktyabrın 6-da isə Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edərkən,[27] Xarici işlər naziri Ceyhun Bayramov ilə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında görüş keçirilərkən,[28] Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşlərində [29] aparılan fikir mübadilələri bunu bir daha təsdiq edir.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il iyulun 16-da Ceyhun Bayramovu Xarici işlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən xarici siyasətimizin əsas konturları barədə danışmış və Avropa İttifaqı ilə tərəfdaşlığımıza xüsusi önəm verildiyini vurğulamışdır.

Hazırki məqamda Aİ-nin Azərbaycanla hesablaşmağının iki aspekti vardır. Birincisi, Brüssel Azərbaycanın təkbaşına BMT və ATƏT-in Minsk qrupunun həyata keçirməyə məsul olduğu, lakin yerinə yetirə bilmədiyi çətin vəzifənin öhdəsindən gəlməsini nəzərə almalıdır. Bu məqam qarşılıqlı münasibətlərdə Azərbaycan amilinə daha böyük diqqət göstərilməsini zəruri edir. İkincisi isə Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsindən sonra da vurğulayırdı ki, rəsmi Bakı Aİ ilə yeni sazişin imzalanmasına önəm verir. Yəni qalib Azərbaycan Avropa İttifaqını mühüm tərəfdaş sayır və onunla əlaqələri inkişaf etdirmək niyyətindədir. Xüsusilə Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladıqları razılaşma sənədində əməkdaşlıqla bağlı ifadə olunan mövqe Aİ-nin Yeni qonşuluq siyasəti və "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində müəyyən etdiyi əməkdaşlıq şərtləri ilə ziddiyyət təşkil etmir. Hətta inklüziv iqtisadi inkişaf, insanlar arasında əlaqələrdə mobilliyin və

[26] "Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı", Azərbaycan qəzeti, Bakı 2021, 11 mart, s. 1.

[27] İldırım Məmmədov, "Avropa İttifaqı Azərbaycanla birlikdə işləmək arzusundadır", Xalq qəzeti, Bakı 2021, 10 oktyabr, s. 3.

[28] "Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb", Azərbaycan qəzeti, Bakı 2021, 16 sentyabr, s. 3.

[29] Azərbaycanın təşəbbüsləri beynəlxalq aləmdə dəstəklənir, Xalq qəz., 4 iyun, 2021-ci il, s. 3; "Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı", Azərbaycan qəzeti, Bakı 2021, 23 iyul, s. 2-3; Rəşad Baxşəliyev, "İlham Əliyev diplomatiyasının təntənəsi. Azərbaycanın Avropa İttifaqı və Rusiya ilə münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyması yüksələn beynəlxalq nüfuzun göstəricisidir", Azərbaycan qəzeti, Bakı 2021, 24 iyul, s. 1; 3; Kamal Adıgözəlov, "Avropa İttifaqının "Şərq Tərəfdaşlığı"na yeni yanaşması: İlham Əliyev diplomatiyasının strateji uğuru", Xalq qəzeti, Bakı 2021, 20 avqust, s.3.

kütləviliyin artırılması və strateji kommunikasiyanın inkişafı aspektlərində tamamilə üst-üstə düşür.[30] Bircə iki tərəfin də bu istiqamətdə daha konkret addımlar atması qalır. Təəssüf doğuran hal olsa da, gözlənilən və müşahidə olunan məqam budur ki, Avropa təsisatları ikili standarta meyillilik nümayiş etdirir. Belə ki, bəzi avropalı deputatlar Azərbaycandan icazə almadan Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanı ilə yenidən qurulmuş Qarabağ iqtisadi rayonuna səfər edirlər. Xüsusilə də bu səfərlər Rusiya sülhməramlılarının nəzarət etdikləri hissələrə olur və bu səfərlərdə həmin sülhməramlılar da onlara yaxından kömək edir. Fransız deputatların bu məsələdə xüsusi canfəşanlığı daha qabarıq görünür. [31] Yalnız Azərbaycanın ciddi etirazlarından sonra Rusiya sülhməramlıları bu prosesi dayandırdılar. Aİ bununla da kifayətlənmədi. Təşkilatın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar 2021-ci ilin aprel ayının 14-də Ermənistana səfəri çərçivəsində özünü "xarici işlər naziri" kimi qələmə verən, qanunsuz rejimin nümayəndəsi David Babayan ilə görüşdü[32]. Buna rəsmi Bakı sərt reaksiya verdi və Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas 16 aprel tarixində Xarici İşlər Nazirliyinə dəvət edilərək T.Klaarın münaqişə sonrası bölgədə yaranmış yeni reallıqları nəzərə almayan, kövrək sülhə təhdid doğuran və qarşı tərəfə əsassız gözləntilər verən addımlar atmasının yolverilməz olduğu vurğulandı. [33] Yalnız bundan sonra T.Klaar separatçılarla görüşdə humanitar məsələləri müzakirə etdiklərini və Azərbaycanın ərazi bütövlüyünə qarşı hər hansı niyyətlərinin olmadığını bildirdi. Bununla belə Aİ-nin bu cür addımı həm Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik, həm də beynəlxalq hüquqa, Azərbaycanın suveren haqlarına və qanunlarına ziddir. Bunların fonunda Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçin Azərbaycan Prezidentinə ünvanladığı məktub da yuxarıda vurğulanan məqamların təsadüf və ya şəxsi təşəbbüs olmadığını, əksinə, Brüsselin ikili standart və selektiv yanaşma ənənələrinə sadiqliyini qoruyub saxladığını

[30] Kamal Adıgözəlov, "Avropa İttifaqı – Azərbaycan münasibətləri: Prezident İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır", Xalq qəzeti, Bakı 2021, 9 iyun, s. 3-4.
[31] K. Adıgözəlov, a.g.m., s. 3-4.
[32]"No:136/21, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas ilə XİN-də keçirilmiş görüş barədə məlumatı".https://mfa.gov.az/az/news/no13621-azerbaycan-respublikasi-xarici-isler-nazirliyinin-metbuat-xidmeti-idaresinin-avropa-ittifaqinin-azerbaycandaki-numayendesi-sefir-kestudis-yankauskas-ile-xin-de-kecirilmis-gorus-barede-melumati (31.01.2022).
[33] No:136/21, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas ilə XİN-də keçirilmiş görüş barədə məlumatı, https://mfa.gov.az/az/news/no13621-azerbaycan-respublikasi-xarici-isler-nazirliyinin-metbuat-xidmeti-idaresinin-avropa-ittifaqinin-azerbaycandaki-numayendesi-sefir-kestudis-yankauskas-ile-xin-de-kecirilmis-gorus-barede-melumati (31.01.2022).

nümayiş etdirir.[34] Belə ki, D.Miyatoviç 30 ilə yaxın davam edən münaqişənin azərbaycanlıların nəhəng humanitar əziyyətlərə səbəb olmasını və yüz minlərlə azərbaycanlının insan haqlarının kütləvi pozulması reallığını, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində tarixi-mədəniyyət abidələrini məhv etməsini, məscidlərdə heyvanlar saxlamasını, böyük talançılıq törətməsini, şəhərlərdə daşı-daş üstündə qoymamasını ya "unudub", ya da bütün bu sadalananları "Komissarın mandatına uyğun görməyib". Qırx dörd günlük müharibə dövründə Gəncə, Bərdə, Ağcabədi və Tərtər şəhərlərində dinc əhalinin böyük dağıdıcı gücü olan bombalarla atəşə tutulması "unutqanlıq" ləkəsi kimi tarixə düşüb. Komissar hansısa "humanizmə uyğun olmayan səhnələrdən", Dağlıq Qarabağda və ətrafındakı "icmalar"dan, "narahatedici və alçaldıcı görüntülər"dən, Bakıdakı Hərbi Qənimətlər Parkının açılışından narahatlığını ifadə edib. [35] Əsl ikili standart nümunəsidir. Maraqlıdır ki, bunu Avropada bir sıra ekspertlər də vurğulayırlar. Onlar burada günahı Aİ-nin Cənubi Qafqaz strategiyasındakı natamamlıqda görürlər. Məsələn, Borut Qrqiç yazır ki, Brüssel üçün insan haqları, qanunun aliliyi kimi məsələlər əhəmiyyət kəsb edir, lakin onlar strateji vizyonu təşkil etmirlər. Həm də söhbət böyük infrastruktur layihələrinin keçdiyi regiondan gedirsə, problem daha konkret həll edilməlidir.

Belə çıxır ki, artıq Avropanın ekspert dairələrində təşkilatın Cənubi Qafqazda postmüharibə dövründə strateji təşəbbüsü ələ almasını və həmin bağlılıqda Azərbaycanın regiondakı aparıcı rolunu praktiki olaraq qəbul etməsini vacib sayırlar. Bəs ötən müddət ərzində rəsmi Bakı Aİ istiqamətində hansı addımları atıb? Diqqət edərkən görürük ki, indiyə qədər "Şərq Tərəfdaşlığı" ölkələrindən heç biri Aİ-yə üzv olan doqquz ölkə ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalamayıb. İmzaladıqları sadəcə assosiasiya sazişidir və cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi *“faktiki olaraq saziş deyil, o, təlimat kitabçasıdır, bilirsiniz, təlimat kitabçası. O ölkələrə təlimat verilir, bunu belə etməlisən, bunu elə etməlisən. Mən isə ondan imtina etdim. Dedim ki, bizə belə təlimat lazım deyil. Biz özümüz bilirik nə etmək lazımdır"*.[36] Ümumiyyətlə, Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində Aİ üzvləri olan bir sıra ölkələrlə əməkdaşlığı inkişaf etdirib. Nəqliyyat dəhlizlərinin fasiləsiz işləməsini təmin edən addımlar atılıb. Nəhayət, strateji kommunikasiya

---

[34] “XİN Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının Azərbaycan Prezidentinə ünvanlandığı məktubu şərh edib”, 27 aprel, 2021, https://azertag.az/xeber/XIN_Avropa_Surasinin_Insan_Huquqlari_uzre_Komissarinin_Azerbaycan_Prezidentine_unvanlandigi_mektubu_serh_edib-1766779 (31.01.2022).
[35] K. Adıgözəlov, a.g.m., s. 3-4.
[36] “Yeni Azərbaycan Partiyasının VII qurultayında İlham Əliyevin giriş nitqi”, Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı – 05.03.2021.https://president.az/articles/50805 (31.01.2022).

üçün böyük əhəmiyyəti olan Zəngəzur dəhlizinin açılması üçün siyasi qətiyyət, iqtisadi iradə və tam hazırlıq nümayiş etdirilib. Münasibətlərin bu cür inkişafı fonunda 2021-ci ilin iyul ayının 18-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan səfəri də mühüm əhəmiyyət kəsb edirdi. 44 günlük Vətən müharibəsində zəfər əldə edilməsindən sonra Avropa İttifaqı Şurasının prezidentinin Azərbaycana səfəri tərəfdaşlığımızın yaxşı göstərcisidir. Bu səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı keçirildi. Həmin konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səsləndirdiyi fikirlər bu münasibətlərin hansı səviyyədə olması və bundan sonra necə bir inkişaf yolu keçəcəyi barədə aydın təsəvvür formalaşdırır: *"Üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Bu, həmçinin bizim iqtisadi fəaliyyətimizin miqyasını nümayiş etdirir. Biz üzv dövlətlərlə ikitərəfli əlaqələrdə çox fəalıq. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib... İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılması üçün yeni imkanlar var. Beləliklə, bu məsələ, eləcə də regionda münaqişədən sonrakı inkişafla bağlı başqa məsələlər bu gün geniş şəkildə müzakirə olundu... Azərbaycan Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və Azərbaycan müharibəyə son qoydu. Ona görə də indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır. Biz buna hazırıq... Düşünürəm ki, nisbətən qısa zamanda xoş məram və çox praqmatik yanaşma nümayiş etdirməklə, biz hələ də masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik. Avropa İttifaqı bu baxımdan çox mühüm rol oynayır və əminəm ki, oynayacaq."*[37] Ölkə baçısının bu fikirləri tərəflər arasında xüsusilə iqtisadi sahədə daha böyük nailiyyətlər əldə olunmasını göstərir. Siyasi konyekturada isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi "*indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır*", "*masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik*" kimi fikirlər əslində Avropa İttifaqına bəzi məsələlərin hələ də həllini gözlədiyinə dair xatırlatma kimi qəbul edilə bilər. Cənab prezident *"işğaldan azad edilmiş ərazilərin yenidən qurulması məsələləri baxımından münaqişədən sonrakı inkişaf hər zaman aramızdakı*

[37]"Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı", Azərbaycan qəzeti, Bakı 2021, 23 iyul, s. 2-3.

*gündəlikdə olacaqdır”* [38], deyə əbəs yerə fikrinin sonunda qeyd etmirdi. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel də çıxışında *“Biz anlayırıq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil”*[39], deyə qeyd etməklə bu məqamların fərqində olduğunu bir daha etiraf edir. Şarl Mişel həm də regional vəziyyətin təhlili ilə bağlı fikir mübadiləsi aparmaq üçün dəfələrlə Azərbaycan Respublikasının Prezidenti ilə telefon söhbətləri etdiyini, sərhədlərin delimitasiyası məsələsində və bunun üçün Avropa monitorinqini etməyə hazır olduqlarını bəyan etmişdir. Lakin Şarl Mişelin çıxışında da balanslı siyasət müşahidə edilir. Məsələn, o, çıxışında bir tərəfdən mina xəritələri məsələsinə toxunur, ardınca da məhbuslar məsələsini müzakirə predmeti edir. Yaxud da sərhədlərin delimitasiyası məsələsində yardım təklif etməklə yanaşı, mübahisə doğuran zonalara yaxın yerləşmiş silahlı qüvvələr məsələsini müzakirə predmetinə çevirir. Bütövlükdə Şarl Mişelin cavabları Azərbaycan-Ermənistan münasibətlərinə dair məsələlərlə bağlı balans yaratmaq təəssüratı doğurur. Bunu biz həm 2021-ci il dekabr ayının 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidentinin Avropa İttifaqı Şurasının prezidenti və Ermənistan Respublikasının baş naziri ilə keçirilən görüşündə, həm də 2022-ci il fevral ayının 4-də Fransanın Avropa İttifaqına sədrliyi qismində videoformatda keçirilən görüşdə müşahidə etdik. Qeyd edək ki, 14 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü keçirildi.[40] Həmin görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi müzakirə edildi və Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu qeyd edildi. Əldə edilən ən mühüm razılıqlardan biri də Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı idi. Hər iki tərəf müvəqqəti işçi qrupunun yaradılması ilə bağlı razılıq əldə etdi. Eyni zamanda, görüş zamanı kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olundu. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Bildirilib ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcəkdir. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip

[38] “Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa ......, s. 2-3
[39] “Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa......., s. 2-3
[40] "Brüsseldə İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan ilə nahar əsnasında birgə görüşü olub", 14 dekabr, 2021, https://president.az/az/articles/view/54626 (30.01.2022).

əsasında təmin olunması barədə razılığa gəlinib.[41] Bütövlükdə bu görüşün təşkilindən məqsəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə kənarda qalan Avropanın aktor dövlətlərini yenidən cərəyan edən proseslərdə fəal iştirakını təmin etmək idi. 2022-ci ilin 4 fevral tarixində videoformatda keçirilən görüş də məhz bu təşəbbüsdən irəli gəlirdi. Belə ki, Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Baş naziri Nikol Paşinyanın iştirakı ilə 2022-ci il 4 fevral tarixində videoformatda görüş keçirildi.[42] Bu görüş ATƏT-in Minsk qrupunun əhəmiyyətini itirməsi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindəki rolunu itirən Fransanın bu rolu bərpası cəhdi kimi qiymətləndirilə bilər. Videoformatda keçirilən görüşdə də mühüm nəticələr əldə edildi. Bu görüşdə də humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparıldı. Müzakirələr zamanı Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq diqqət verdi. Dövlətimizin başçısı Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini məsələsini bir daha diqqətə çatdırdı. [43] Bu görüş sonrası Avropa İttifaqının bəyanatı siyasi proseslərin Azərbaycanın maraqlarına uyğun cərəyan etdiyini açıq formada göstərir. Bəyanatda ümumiyyətlə, Qarabağ ifadəsi yoxdur və tərəf kimi yalnız Azərbaycan və Ermənistan dövlətlərinin adı çəkilir. Bəyanatda maraq cəlb edən əsas vacib məqamlardan biri də faktiki olaraq Minsk qrupunun fəaliyyətinə istinadın olunmamasıdır. Şarl Mişel və Emmanuel Makronun birgə bəyanatının ən mühüm məqamlarından biri də bu sənədin Brüsseldə sülh gündəliyinin davamı qismində bəyan olunmasıdır. Bu mənada dövlət başçısı Ermənistanı və havadarlarını Avropa İttifaqı səviyyəsində qəbul olunan sənədlə fakt qarşısında qoydu. Çünki

[41] "Belçikada Azərbaycan, Ermənistan və Aİ Şurası liderlərinin görüşü baş tutub", 15 dekabr, 2021, https://report.az/xarici-siyaset/belcikada-azerbaycan-ermenistan-ve-ai-surasi-liderlerinin-gorusu-baslayib/ (30.01.2022).
[42] "İlham Əliyevin, Fransa Prezidentinin, Avropa İttifaqı Şurasının Prezidentinin və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda görüş keçirilib", 4 fevral, 2022,https://president.az/az/articles/view/55368 (04.02.2022).
[43] "İlham Əliyevin, Fransa Prezidentinin, ……(04.02.2022).

bu şərtlərin hər biri əməkdaşlıq və əmin-amanlıq vəd edir, Avropa İttifaqının hazırkı sədri olan Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə reallaşan görüşün gündəliyinin əsasını da məhz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması və qarşılıqlı etimad quruculuğu kimi məsələləri özündə ehtiva edirdi.

## Nəticə

Bu gün Azərbaycan rəhbərliyi üçün Aİ ilə əlaqələr xarici siyasətin prioritetləri sırasına daxildir və Azərbaycan Respublikası üzərinə düşən bütün vəzifələri yüksək səviyyədə yerinə yetirir. Bununla rəsmi Bakı həm Avropa İttifaqı ilə əlaqələri gücləndirir, həm də bir daha regionun aparıcı dövləti, lider ölkəsi kimi fəallığını ortaya qoyur. Əminliklə demək olar ki, Aİ – Azərbaycan münasibətləri yalnız ziddiyyətlərlə deyil, həm də perspektivlə xarakterizə olunur. Azərbaycan Prezidentinin qətiyyəti və ədalətli siyasəti ilə tərəflər arasında əlaqələrin güclənəcəyinə yeni ümidlər yaranmaqdadır. Aİ-Azərbaycan münasibətlərinin inkişafı tərəflərin bərabərhüquqlu tərəfdaş statusunda bir-birini qəbul etməsinə bağlıdır. Əvvəlki dövrlərdə Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrin maraqlarını nəzərə almağa həvəsli deyildi. Azərbaycanın müstəqil davranışları və xüsusən İkinci Qarabağ müharibəsindəki qələbəsi Brüsseli mövqeyinə yenidən baxması ilə nəticələndi. Bununla Azərbaycan Rusiya ilə yanaşı, postsovet məkanında Aİ ilə bərabərhüquqlu tərəfdaş statusuna yüksəlmiş dövlət oldu. Bu vəziyyət "Şərq Tərəfdaşlığı"na daxil olan digər ölkələrin yürütdüyü siyasətə də təsir etdi. Azərbaycanın İkinci Qarabağ müharibəsindəki parlaq qələbəsi Aİ-ni regiona münasibətini dəyişməyə sövq etdi. Brüssel yeni yaranmış geosiyasi mənzərəyə nüfuz etmək üçün daha fəal olmaq xəttini seçdi. Lakin bu zaman regionda artıq Rusiya və Türkiyənin aparıcı rol oynaması ilə barışmalı oldu. Aİ Cənubi Qafqaz istiqamətində siyasətini vurğulanan şərtlər çərçivəsində daha səmərəli etmək istiqamətində çalışır. Hazırda Aİ Azərbaycanla münasibətlərə daha çox önəm verir. Ekspertlərin qənaətinə görə, Brüssel strateji xarakterli və konkret məzmuna malik layihələrin həyata keçirilməsinə üstünlük verməlidir. O cümlədən, Aİ strateji kommunikasiyaların işə salınmasında yaxından iştirak etməlidir. Azərbaycan bu istiqamətdə konkret addımlar atdığından söhbət, faktiki olaraq, Aİ-nin Azərbaycanı dəstəkləməsindən gedir. Bu baxımdan Aİ-nin Zəngəzur dəhlizinin reallaşmasına münasibəti Brüssel üçün mühüm bir sınaq təsiri bağışlayır.

## İstifadə Edilmiş Ədəbiyyat

ADIGÖZƏLOV, K., "Avropa İttifaqı – Azərbaycan münasibətləri: Prezident İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır", *Xalq qəzeti,* Bakı 2021, 9 iyun, s. 3-4.

................................, "Avropa İttifaqının "Şərq Tərəfdaşlığı"na yeni yanaşması: İlham Əliyev diplomatiyasının strateji uğuru", *Xalq qəzeti*, Bakı 2021, 20 avqust, s. 3.

"Avropa İttifaqı Gəncə şəhərinə mülki insanların həlak olması və yaralanması ilə nəticələnmiş hücumu pisləyib", *Azərbaycan qəzeti*, Bakı 2020, 18 oktyabr, s.8.

"Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin birgə mətbuat konfransı", *Azərbaycan qəzeti,* Bakı 2021, 23 iyul, s. 2-3.

"Azərbaycan və Avropa İttifaqı qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlıdır", *Azərbaycan qəzeti,* Bakı 2020, 27 sentyabr, s. 2.

"Azərbaycanın Baş prokuroru Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri ilə görüşüb", *Azərbaycan qəzeti*, Bakı 2020, 20 oktyabr, s. 5.

"Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı", *Azərbaycan qəzeti,* Bakı 2021, 11 mart, s. 1.

BAXŞƏLİYEV, R., "İlham Əliyev diplomatiyasının təntənəsi. Azərbaycanın Avropa İttifaqı və Rusiya ilə münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyması yüksələn beynəlxalq nüfuzun göstəricisidir", *Azərbaycan qəzeti*, Bakı 2021, 24 iyul, s. 1; 3.

BAYRAMOV, V., "Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir" *Xalq qəzeti*, Bakı 2020, 27 sentyabr, s. 1.

..............................., "Azərbaycanın təşəbbüsləri beynəlxalq aləmdə dəstəklənir", *Xalq qəzeti*, Bakı 2021, 4 iyun, s. 3.

"Belçikada Azərbaycan, Ermənistan və Aİ Şurası liderlərinin görüşü baş tutub", 15 dekabr, 2021, https://report.az/xarici-siyaset/belcikada-azerbaycan-ermenistan-ve-ai-surasi-liderlerinin-gorusu-baslayib/ (30.01.2022).

"Brüsseldə Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 17-ci iclası keçirilib", *Azərbaycan qəzeti*, Bakı 2020, 20 dekabr, s. 2.

"Brüsseldə İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan ilə nahar əsnasında birgə görüşü olub", 14 dekabr, 2021, https://president.az/az/articles/view/54626 (30.01.2022).

"BP-nin regional prezidenti Baş Nazir Əli Əsədova məktub ünvanlayıb". 19 oktyabr, 2020, http://nk.gov.az/az/document/4858/print/ (31.01.2022).
"Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb", *Azərbaycan qəzeti*, Bakı 2021, 16 sentyabr, s. 3.

"Cənub Qaz Dəhlizi", https://minenergy.gov.az/az/layiheler/cenub-qaz-dehlizi_2196 (31.01.2022).

"Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu", *Azərbaycan qəzeti*, Bakı 2011, 24 aprel, s. 2.

"Cənub Qaz Dəhlizi" layihəsinin icrası və layihənin regional qarşılıqlı təsirləri", http://minenergy.gov.az/upload/files/Energetika_bolmesi/qaz/CenubQaz Dehlizi.pdf (31.01.2022).

"Ermənistan Gəncə, Tərtər və Bərdənin mülki əhalisinə qarşı törətdiyi terrora görə ağır cavab verəcəkdir!", *İki sahil. onlayn ictimai-siyasi qəzet*, Bakı, 30 oktyabr, 2020, https://ikisahil.az/post/174882-ermenistan-gence-terter-ve-berdenin-mulki-ehalisine-qarshi-toretdiyi-terrora-gore-agir-cavab-verecekdir (31.01.2022).

ƏSGƏROVA, N. S., "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Avropa İttifaqının Azərbaycanda enerji təhlükəsizliyi məsələsi", *Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnalı*, №1, Bakı 2021, s. 108-115.

"Hikmət Hacıyev: Aİ-nin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ardıcıl mövqeyini yüksək qiymətləndiririk", *Azərbaycan qəzeti*, Bakı 2020, 18 yanvar, s. 2.

"XİN: Aİ sözçüsünün erməni hərbçilərin azadlığa buraxılması ilə bağlı açıqlama verməsi təəccüb doğurur", *Azərbaycan qəzeti*, Bakı 2021, 31 yanvar, s. 5.

"XİN Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarının Azərbaycan Prezidentinə ünvanlandığı məktubu şərh edib", 27 aprel, 2021, https://azertag.az/xeber/XIN_Avropa_Surasinin_Insan_Huquqlari_uzre_Komissarinin_Azerbaycan_Prezidentine_unvanlandigi_mektubu_serh_edib-1766779 (31.01.2022).

"İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında çıxış edib", 11 fevral, 2021, https://president.az/az/articles/view/50591 (31.01.2022).

"İlham Əliyevin, Fransa Prezidentinin, Avropa İttifaqı Şurasının Prezidentinin və Ermənistanın baş nazirinin iştirakı ilə videoformatda görüş keçirilib", 4 fevral, 2020, https://president.az/az/articles/view/55368 (04.02.2022).

"İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib", 27 sentyabr, 2020, president.az/articles/40969 (31.01.2022).

MƏMMƏDOV, İ., "Avropa İttifaqı Azərbaycanla birlikdə işləmək arzusundadır", *Xalq qəzeti,* Bakı 2021, 10 oktyabr, s. 3.

MİRZƏBƏYLİ, İ., "Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı Avropa İttifaqı tərəfindən həmişə dəstəklənib", *Xalq qəzeti*, Bakı 2021, 23 fevral, s. 3.

NƏCİYEV, E., *Rusiyanın Avropa ölkələri və Türkiyə ərazisində "Cənub Qaz Dəhlizi"nə qarşı fəaliyyəti, bu istiqamətdə təsir imkanları və istifadə etdiyi vasitələr`*, https://www.unectf.org/2875/ (31.01.2022).

"No:136/21, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskas ilə XİN-də keçirilmiş görüş barədə məlumatı", https://mfa.gov.az/az/news/no13621-azerbaycan-respublikasi-xarici-isler-nazirliyinin-metbuat-xidmeti-idaresinin-avropa-ittifaqinin-azerbaycandaki-numayendesi-sefir-kestudis-yankauskas-ile-xin-de-kecirilmis-gorus-barede-melumati (31.01.2022).

"Şərq Tərəfdaşlığı", https://eufordigital.eu/az/discover-eu/eastern-partnership/ (31.01.2022).

"Şərq Tərəfdaşlığı ölkələrinin sammitində İlham Əliyevin nitqi", 18 iyun, 2020, https://president.az/az/articles/view/39850 (31.01.2022).

"Yeni Azərbaycan Partiyasının VII qurultayında İlham Əliyevin giriş nitqi", Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı – 05.03.2021, https://president.az/articles/50805 (31.01.2022).